# Meydan tamaşalarında, xalq oyun və əyləncələrində çalğı alətlərimiz

***Azərbaycanda keçirilən meydan tamaşa və şənlikləri əsasən mövsüm və ailə-məişət ayinlərindən təşəkkül tapmışdır.***

***"Atəşəfruz" meydan şənliyində təlxək - Atəşəfruz 2-3 nəfər və ya böyük dəstə ilə çıxış edir. Onlar əlvan rəngli və zınqrov taxılmış geyimdə, sifətləri hisli, maskalı başlarına şiş-papaq qoyur və yaxud xəmirə bulaşmış başlarına neftə hopdurulmuş əski, pambıq bağlayıb yandırırlar.***

İştirakçılardan biri iki taxtanı bir-birinə vuraraq "atəşəfruzam, həqirəm, ildə bir gün fəqirəm" sözlərilə başlanan mahnını oxuyur. O biriləri isə əllərində məşəl, təbil - nağara çalaraq rəqs edir, oxuya-oxuya küçələri gəzir, oradakı tonqallara od vurur və ətrafında oyun göstərirlər.

"Cıdır" tamaşalarını keçirmək üçün qış fəslinin fevraldan başlanan ikinci qısa (20 gün) ayı - kiçik çillədə bütün qış ərzində bəslənən atlar havaya çıxardılır, onları yaşıl yonca ilə gözlər və yemləyəndə arpaya kişmiş qatılır. Cıdırqabağı atlar qaşovlanır, nallanır və bəzədilir, yüyənlərə misdən hazırlanmış zınqırovlar asılır. Cıdır tamaşaları səhər və ya günortadan sonra düzən yerlərdə keçirilir. Cıdır vaxtı zurna, balaban, qaval çalınır, bəzən də tüfəng atılır. Qalib şəxs elan edildikdən sonra oyunçular at üstündə rəqs edir, akrobatik oyunlar (gərdənqaçırdı, sürpapaq) göstərir və başqa mürəkkəb hərəkətlər göstərirlər. Daha sonra həzin zurna sədaları altında at oynadılır. Mehtərlər atı sığallayıb nəğmə oxuyurlar. Cıdırda iştirak edənlər müxtəlif manеələr üstündən aşaraq mənzil başına çatırlar.



Cıdırçılardan sonra bəzədilmiş zınqırovlu atlar üstündə oxatma yarışı keçirilir. Bu vaxt da oxunan nəğmələrdə oxatanlara uğurlar arzulanır.

Əyləncə məqsədilə keçirilən qılıncoynatma və kəməndatma cıdır tamaşalarının maraqlı mərhələlərindən biridir. Bu yarışlar zamanı da onları qızışdırmaq məqsədilə nəğmələr oxunur.

Qədim tarixə malik olan "Çövkən" ("Çovkan") oyunu uzunluğu 90-150 və eni 60-120 m olan meydanda keçirilir. Maraqlıdır ki, vaxtilə bu oyunda kişilərlə yanaşı qadınlar da iştirak edirdi. Oyunda əllərində uzunluğu 1-1,25 m olan və baş tərəfdən çömçə şəklində bir qədər əyri əl ağacını - çövkəni tutan iki dəstəyə bölünmüş 8-16-20 nəfər iştirak edir. Onlar milli geyimdə oyun zamanı çapar atın üstündə içərisi yunla doldurulmuş yumruq boyda dəri və ya yüngül ağacdan hazırlanmış topu vururlar. Oyunçular çalışırlar ki, müəyyən edilmiş qaydalarla topu meydanın hər iki qurtaracağında 2-3 m hündürlüyündə kərpicdən hörülmüş iki sütun və ya ağac dirəciklərin arasından keçirsinlər. Oyunu üç hakim (baş hakim süvari olur) idarə edir. Musiqinin müşayiətilə keçirilən oyun fasilələrlə iki saata kimi çəkir. Meydanda tamaşaçılar üçün də yer ayrılır.

"Dəvəoyunu" məzhəkə tamaşasında "dəvə" görkəmində bir məsğərəbaz boynuna zınqırov taxır, başqası isə əl-ayağı hisli, belinə süpürgə asaraq "dəvəçi" rolunu oynayır. O, sözlə, hərəkət və him-cimlə axund, kəndxuda, qazı və başqalarını ələ salır.

Orta əsrlərdə küçə və meydanlarda əynində qısa ətəkli paltar, dar şalvar, belində kəmənd, başında ucunda zınqırovu olan papaq olan məzhəkəçi - əyyar (hiyləbaz) əllərində iki qaşığı səsləndirərək məzəli tamaşalar göstərirdi.

"Xəlil öldü" tamaşasında sazəndə dəstəsinin iştirakı ilə Xəlilə toy məclisi qurulur. Bəyi gəlinlə birlikdə otağa aparırlar. Gəlini öpən zaman bəyin ürəyi gedir. Onun hər iki tərəfində dayanan dörd nəfər sual-cavab şəklində oxuyurlar. "Xərarə" məzhəkə oyunu zamanı ölümə məhkum olunmuş "canını" və ya əsir düşmüş düşmən "başçısını" ulağa mindirir. oyunçu təbil, qaval və nağaranın ritmik sədaları altında müqəssiri məzəli sözlərlə ələ salır, təhqir və rüsvay edir.

"Kaftar-kosa" tamaşasını keçirmək üçün iki enli taxta parçasını əski ilə elə dolayırlar ki, istənilən vaxt açılıb-yumulur, lazım gəldikdə isə bir-birinə vurulduqda bərk şaqqıldayır. Onun üstünə dəri çəkib "kaftar-kosanın" zəhmli başını düzəldirlər. Oyunçu ayı və ya çöl keçisinin dərisindən tikilmiş paltarı əyninə geyir, hazırlanmış mulyajı öz başına keçirir. İfaçı zurnada oynaq hava çalır. Kaftar-kosa məzəli rəqs edir, ağzını şaqqıldadır və geniş açaraq adamlara tərəf gedir. Onun ağzına qab, çörək və başqa əşyaları atırlar. Kaftar-kosa onları asanlıqla "udur". Kəndin içərisi ilə gedəndə ağzını elə şaqqıldadır ki, itlər ona hürməyə cəsarət etmir, qaçıb gizlənməyə yer axtarır.

Bu oyun başqa şəkildə də keçirilir. İki oyunçudan biri kəfənlə örtülmüş ölünün cəsədini, başqası isə tünd rəngli parçaya bürünmüş kaftarı təmsil edir. "Heyvanın" ağzı iki iri qaşıqdan düzəldilir. Qəmli mahnı ilə ölünü otağa gətirirlər. Bir azdan gizlənə-gizlənə otağa kaftar

daxil olur. O meyiti görüb sevinir və ləzzətli yemək iştahı ilə şən musiqinin müşayiətilə meyitin ətrafında oynayır. Sonra sakitcə meyitə yaxınlaşır və onu açır. Meyit birdən dirilir. Kaftar qorxaraq tamaşaçıların gülüşü altında ordan qaçır.

"Kəndirbaz" tamaşasında altı nəfər iştirak edir: kəndirbaz (canbaz pəhlivan), təlxək (yalançı pəhləvan, keçəpapaq), meydana və ipin tarımlığına nəzarət edən gözətçi, usta zurnaçı, ona züy tutan balabançı və nağaraçı.

Aralarında 10-15 m məsafə olan dirək rolunu oynayan iki-üç yoğun payanı bir-birinə çatıb yerə maili dərin basdırırlar. Sonra payaların yerdən 3-4 m hündürlükdə olan haçalarına kəndir (cambaz ipi) bağlayıb tarım çəkirlər. Beləliklə, tamaşanı keçirmək üçün qurğu - dar qurulur. İp üstə çıxan kəndirbaz (rismanbaz, rustambaz) uclarına torpaq doldurulmuş kiçik torba bağlanılan uzun nazik ağac (ləngər, pərdi) vasitəsilə müvazinətini saxlayaraq kəndirin ortasına kimi gedib zurna, balaban və nağara sədaları altında xüsusi "Kəndirahəngi", "Darahəngi" melodiyaları ilə yanaşı "Qaytağı", "Tərəkəmə", "Təkçalma" rəqs havaları ilə oynayır, atılıb-düşür, müxtəlif bədən hərəkətləri və trüklər göstərir. Bu zaman tərsinə çevrilmiş qoyun kürkü geyən, hissli üzünü təpəsinə buynuz tikilmiş keçi dərisindən hazırlanmış üzlüklə örtən, boynuna və qollarına zınqırov asan, arxasından eşşək quyruğu sallanan təlxək kəndirbazı yamsılayır, onun hərəkətlərinə uyğun zarafat edir və oynayır. Hərdən kəndirbaza xitabən: Can qardaş! - deyə müraciət edir, o isə: Bəli, can qardaş, - deyir. Təlxəyin: Hünər kimin üçündür? sualına: Hünər tək Allah üçündür, hünər sənin üçündür, hünər hünər üçündür, can qardaş sözlərilə kəndirbaz cavab verir. Sonra təlxək: Canbaz qardaş, gəl sən indi orada kəndir üstə bir qaytağı oyna, buraya cəm olmuş kəramət sahibi bizə bir az cibxərcliyi (və ya: puldan-paradan) versin deyir. Bu sözlərlə o, bir neçə dəfə kəndirbaza müraciət edir və axırda kənarda xalça üstündə əyləşmiş zurnaçıya: Usta, balabanı köklə - deyir.

Müəyyən anlarda zurnanın səsi alçalır, həzin səsli balabanın səsi gurlaşır. Bəzən isə kəndirbaz tək nağaranın ritmi altında rəqs edir.

Vaxtilə tamaşa məhsul mövsümü başa çatdığı gündən yeni əmək mövsümünün başlanan dövrə qədər, yəni yay başlanana kimi keçirilirdi. Zamanımızda bu meydan tamaşası Novruz günlərində, məhsul bayramı şənliklərində göstərilir.

Toy və bayramlarda keçirilən saz çalan aşığın müşayiəti ilə göstərilən "Kilimarası" tamaşasında əvvəlcə mahnı oxunur. Əllərinə və sağ dizinə kukla-müqəvvalar keçirmiş bir iştirakçı kilimin ortasında uzanır və yerdə oturmuş iki köməkçi isə kilimin kənarlarını sinələri səviyyəsində saxlayır. Əvvəlcə aşıq bir oyun havası çalır. Müqəvva gəlin kilimin arasından çıxaraq nazlana-nazlana "Tərəkəmə" rəqsini oynayır. Arada kilimin arasından yaraşıqlı müqəvva kişi çıxıb gəlinlə birlikdə rəqs edir. Bunlar ər-arvad rolunu oynayırlar. Kişi kilimin arasına girib yuxulayır. Gəlin kilimin başqa tərəfində gizlənən yöndəmsiz kişiyə - oynaşına işarə edir. Onlar qol-boyun olub o tərəfə, bu tərəfə süzürlər. Qəfildən gəlinin əri kilimin arasından çıxıb yad kişini və arvadını xəncərlə öldürür.

Başqa variantda əri oynaşın üstünə cumur. Onlar arasında dava düşür. Özünə bəraət qazandırmaq üşün gəlin oynaşın üstünə düşür. Yuxudan oyanan qızı (sol dizə keçirilmiş kukla) da ona qoşulur.

Qışın çıxması ilə əlaqədar keçirilən "Kosa evlənir" tamaşasında kosa, gəlin rolunda oynayan oğlan uşağı, ambardar, sazçı və nağaraçı iştirak edir.

Musiqiçilər kosa və gəlini müşayiət edirlər. Kosanın boynundan asılan zinqırovların səsinə uşaqlar toplaşırlar. Kosa bir həyətə girərək tövləyə bir təpik vurur və gəlinlə oynayır. Sonra gəlini iş dalınca göndərir. O, gedib qayıtmır. Kosa onu tapmayanda ağlamağa başlayır. Acığını həyətdəki səbəti təpikləməklə çıxır. Az sonra gəlin qayıdır. Ambardar kosaya evlərdən yığılan yeddi növ pay verir. Payı az görən kosa yıxılır, guya ölür. Gəlin onun başını dizinə qoyub oxuyaraq onun halına yanır.

"Kosa-gəlin" tamaşası toy mərasimlərində və el şənliklərində keçirilir.

Oyunda xüsusi geydirilmiş kosa, onun arvadı, oynaş və məmur iştirak edir.

Toyda aşıqlar dastanlar söylədikdən sonra kosa arvadı ilə birlikdə camaatın arasına çıxır. Kosa kəndin məmuruna qalayçı olduğunu bildirir. Məmur bu barədə sənəd - dəstəvuz tələb edir. Kosa birdən diksinərək burada oğrunun olub-olmamasını soruşur. Məmur onu sakitləşdirəndən sonra kosa arvadına yaxınlaşır, ona ədəbsiz söz deyir. Qəfildən nağaranın güclü səsi eşidilir. Diksinən kosa qorxudan yerə sərilir. O, elə bilir ki, güllə atılmışdır. Ona siçanın asqırdığını və ya uşağın öskürdüyünü deyirlər. Kosa sakitləşir. Arvadına yaxınlaşıb, ona xoşbəxt olacaqlarını, yaxşı pul qazanacağını bildirəndə zurnanın uca səsi eşidilir. O, burada aşıq olmasını duyur və oynamaq arzusunu bildirir. Aşıq sazda çalır. Kosa təlxəklik edir, ətrafdakıları güldürür. Kosa arvadını tumarlayanda onu itələyir. Kosa yıxılır və ayaqlarını yuxarı qaldırır. Məmurdan ona bədxah adamlardan uzaq yer göstərilməsini xahiş edir. Kosaya bir qədər aralıqda yer göstərirlər. Başı danışmağa qatışır və birdən arvadı ilə dilxoşluq edən oynaşı görür. Aralarında mübahisə düşür və onlar dalaşırlar. Arvadı oynaşa kömək edir.

"Kosa-kosa" tamaşası əsasən toy və bayramlarda oynanılır. Tamaşa qışı təmsil edən qoyun dərisindən tərsinə çevrilmiş kürk geyən, başına dəridən və ya rəngli kağızdan şiş papaq qoyan, geyiminin altından yastıqca sarınmış, üzünə kağız və ya parçadan düzəldilmiş üzlük (maska) taxan, belinə zınqrovlu kəmər və taxtadan qılınc bağlayan, boynundan zınqırov asan və məzəli rəqslər ifa edən məzhəkəçi - kosa tərəfindən icra olunur. Adamlar Kosanı dövrəyə alıb bir ağızdan onu tərifləyib oxuyurlar. Kosa xoşhal olub, özünü dartmağa başlayır. Adamlardan biri yumorla onun erkən gəlməsinin səbəbini, başqası haradan gəlməsini soruşur. "Qaytağı" rəqsini oynayan vaxt "Kosa mürd" deyəndə o, durduğu yerdə səndələyir və yerə sərilir. Üzünə su atanda diksinib oyanır. Adamların onun hardan gəldiyi yeri, nə gətirdiyini və pula nə aldığı suallarına cavab verir. Pula öküz aldığını, onu da saqqalının yeli yarğandan uçurmasını deyir. Kosa ağlamsınır, adamlar isə gülüşərək bu dərdin onu öldürəcəyini bildirirlər. Bunu eşidən Kosa yenə də yıxılıb bayılır. Adamlar onun üzünə su atıb dolayaraq oxuyurlar. Kosa zınqırovu cingildədərək çömçəsini uzadıb sovqat istəyir. Adamlar kosanın ətrafında dövrə vura-vura



ona atmacalar atırlar. Kosa isə xurcununu doldurur, buna sevinərək çırtıq çalıb oynayır. Kosa qabaqda, ətrafındakılar isə arxada oxuya-oxuya, oynaya-oynaya meydanı tərk edirlər.

Bu tamaşa başqa ssenari üzrə də qurulur. Kosa yol xərcini yığmaq üçün köməkçisilə məclisə gəlir. Köməkçi yazı təmsil edən keçinin vasitəsilə camaatdan pul toplayır. Kosa zorla pulu keçidən almaq istəyir. Keçi yatmış kosanı daşla vurub öldürür.

Tamaşada kosa adı ilə əldə uca boylu müqəvvanı tutaraq küçə boyu da gəzdirirlər.

"Qulyabanı" tamaşasında qabaqda qoyun dərisi geymiş qorxunc görünüşlü dəstə üzvlərindən biri küçə-meydanları gəzir və təbil çala-çala "mən qülyabanıyam" sözlərilə başlanan nəğməni oxuyur və oynayır.

"Qaraçı" tamaşası əsasən payız, qış və yaz mövsümlərində, bəzən isə məhsul yığımı vaxtı axşam çağı 3-5 və daha çox ailəni birləşdirən qaraçılar tərəfindən göstərilir. Tamaşa adətən bir neçə saat davam edir. Əvvəllər tamaşa iştirakçıları oyunbaz, onun köməkçisi, meydan keşikçi, qavalçı və sayı üçə çatan rəqqasə qızlardan ibarət idi. Sonralar qaraçı dəstəsinə balabançı və ya zurnaçı daxil edilir. XIX əsrin sonunda və XX əsrin əvvəllərində qarmonun əhali arasında məşhurlaşması nəticəsində bu alət balaban və zurnanı əvəz edir. Oyunbaz təlim görmüş ayı ilə birlikdə qavalın ritmik müşayiətilə əyləncəli rəqs edir. Rəqsin tempi getdikcə artır və sonra qəfildən yavaşayır. Bu vaxt meydana qaraçı qızlar daxil olur. Onlar ayaqyalın oynayaraq, ara-sıra qavalı səsləndirir və mahnılar oxuyurlar.

"Maraloyunu" tamaşasında ifaçı əlləri ilə yerə dirsəklənir, dizlərini yerə qoyur, bədənini qırmızı məxmər parça və ya kəlağayı ilə örtür. Sağ əl dirsəkdən yuxarı qaldırılır. Ona maral başı - mulyaj və ya iki buynuzlu maska keçirilir. Həzin musiqi sədaları altında (məsələn, "Səməni") "maral" gəzişərək dayanır, buynuzu ilə kürəyini qaşıyır, gah da ətrafı gözdən keçirərək otlamağa başlayır. Sonda başını sol tərəfdən dala çevirərək çiyni üstünə qoyaraq yatır. Qəfildən zurna səslənir və "maral" qaçmaq istəyir. Lakin sakitlik çökür, maral yenə də yuxuya gedir. Bu zaman onun bədəni azca qalxır və enir. Yenə də həzin musiqi çalınır, "maral" oynamağa başlayır.

Başqa variantda tamaşada "maral və "ovçu" iştirak edir. Maralın sifətini əvəz edən orağın ortasına qulağa oxşar və çəpəki qoyulmuş iki çömçə bağlanır. Qırmızı şalın ucu ilə orağın üzəri örtülür, şalın qalan hissəsini oyunçu üstünə salır. Sonra dizləri üzərində dayanır və orağın dəstəyindən tutaraq maralın baş hissəsini alnından yuxarı saxlayır. Aşıq sazda ağır oyun havası çalır. Oyunçu dizi və dirsəkləri üstündə yeriyərək meydana daxil olur. O gah oynayır, başı ilə o yana bu yana var-gəl edir, otlayır, gah da qulaqlarını şəkləyir. Bu zaman ovçu marala yaxınlaşır. Bunu görən maral qaçmaq istəyir. Musiqinin tempi artır. Ovçu tüfəngi ona sarı tuşlayanda maral qalxır və üzünü açır. Ovçu əvvəlcə heyrətlənir, sonra onlar birlikdə rəqs edirlər. Masqara (məzhəkə) tamaşasını masqarabaz, köməkçi, zurnaçı, balabançı və qavalçıdan ibarət dəstə göstərir. Bəzən zurnaçı və balabançını sazda çalan aşıq əvəz edir. Əvvəlcə zurnada zil hava çalınır. Uşaqlar meydana doluşub oynayır, atılıb düşürlər. Zurnaçıdan sonra balabançı məzəli, şux rəqs və mahnılar çalır. Sonda qavalçı yüngül ritmlərlə xüsusi libas geyinmiş masqarabazı meydana dəvət edir. O, meydana daxil olandan sonra musiqi sədaları altında uşaqlar məzəli məzmunlu rəqs edir, mayallaq aşıb meydandan uzaqlaşırlar. Bundan sonra masqarabaz öz işinə - məzəli əhvalat üzərində qurulmuş masqaraya başlayır. Bu zaman əhvalatın məzmununa, ritminə uyğun olaraq növbə ilə zurna, balaban və qaval səsləndirilir. Tamaşanın sonunda masqarabaz köməkçilərini və musiqiçiləri də masqaraya qoyur.

Şəhər və kənd meydanlarında bir və ya iki oyunbaz "Mərəkə" oyunu göstərir. Bu vaxt nəqqal və dərvişlər çıxış edir, canbaz və kəndirbazlar güc-qüvvət nümayiş etdirir, lotu, masqarabaz və komik oyunçular isə tamaşaçıları əyləndirirlər. Bütün bu oyunlar çalğı və rəqslərlə müşayiət olunur.

Mart ayının 21-də göstərilən "Novruz" tamaşasında ağsaqqal (halay başçısı), ağbirçək (halay ayaqçısı), milli geyimdə on və daha artıq oğlan və qızlar, zurnaçılar dəstəsi, sazəndələr (aşıqlar və müğənnilər), oğlan-qızlardan ibarət milli geyimdə rəqqasələr, kosa, pəhləvan, kəndirbaz dəstəsi və tamaşaçılar iştirak edirlər.

Axşamçağı tonqal ətrafında halayçılar və camaat toplaşırlar. Zurna səsi eşidilir, bir azdan zurnaçılar dəstəsini sazəndələr əvəz edir. Oğlan və qızlar halay sırasından çıxıb üz-üzə dayanırlar və müğənninin oxuduğu nəğmədən sonra eyni sözləri təkrarlayırlar. Mahnı qurtaran kimi zurnada "Yallı" havası çalınır. Halayçılar tonqal ətrafında dövrə vururlar. Bu melodiyanın müşayiətilə yenidən müğənni oxuyur. Sonra tonqal alışdırılır, növbə ilə alovlanan tonqalın üzərindən hoppanırlar. Yenidən halay cərgəsinə düzülüb yallı gedirlər. Xorun müşayiətilə müğənni oxuyur, sonra onu aşıq əvəz edir.

Sazəndələr şən-şux ritmli melodiya çalır. Ayaqçı ağbirçək oxuduğu hər misranı halayçılar tamamlayırlar. Sazəndələr melodiyanı dəyişdirir, qarı, müğənni və xor növbə ilə oxuyurlar. Mahnı qurtaran kimi qara zurnada "Çobanlar" rəqsi çalınır. Oğlanlar meydana atılırlar. Rəqs qurtaran kimi yenidən xorun müşayiətilə müğənni oxuyur. Sonra şən melodiya eşidilir. Bir əlində nəlbəkidə şam, o biri əlində isə boşqabda səməni tutan qızlar oynaya-oynaya halayçılara qoşulurlar. Yenidən müğənni xorla birlikdə oxuyur və yallı oyunu davam edir.

Ağsaqqal yallıbaşı dumbulun ritmilə meydana daxil olur, kosa və xorla birlikdə oxuyurlar. Bundan sonra "Cəngi" sədası ilə meydana daxil olan pəhləvan on və daha çox ikipudluq daşlarla gücünü nümayiş etdirir. Arada gözbağlayıcılar cürbəcür hoqqa çıxarırlar. Zurna sədaları ilə meydana kəndirbaz, keçəpapaq, kosa və "keçi" balaları ilə gəlir. Məzhəkəçi dumbul çala-çala üzünü kosaya tutaraq oxuyur. Bu vaxt keçəpapaq oyun çıxarda-çıxarda papağını camaata tərəf uzadır. Hamı payı ona yox, zınqırovlu keçiyə verir.

Kəndirbaz zurnanın müşayiətilə kəndirdə müxtəlif nömrələr göstərir. Zurnaçı çalğısına ara verir. Müğənni dumbulun ritmilə oxuyur. Camaatın payı keçi və onun balalarına verən görüb, kosa əlindəki dəyənəklə keçini döyür, balalarını qovur. Keçi şaxə qalxıb kosanı böyründən vurur. Kosa yerə yıxılır. Müğənni dumbulun ritmilə oxuyur. Kosanı ölmüş görən keçəpapaq yalandan ağlayır. Kosa birdən xortdayıb qalxır və tamaşaçılarla dialoqu başlayır. Sonra hamı kosanın

ətrafında yallı gedir.

Keçi balaları ilə birlikdə zurnada çalınan "Vağzalı" melodiyası altında meydana daxil olur.

Ona çoxlu pul verirlər. Meydanda "Cəngi" sədası ucalır. Halay iştirakçıları yallı gedirlər. Zurna səsini dumbulun ritmi əvəz edir. Müğənni və xor tonqalın ətrafında oxuyurlar.

Meydan mərasiminin yekunlaşmasını bildirmək üçün aşıq ortalığa çıxıb "Duvaqqapma" oxuyur. Halayçılar aşığın ətrafında "Müxəmməs" saz havası ilə oynayırlar. Aşıq oxuyur və zurnaçılar dəstəsi "Marş" havasını çalırlar. Beləliklə, tamaşa başa çatır.

"Sayaçı" oyun tamaşalarından olan "Salam əlik say bəylər"də baş çoban, aparıcı soytarı, baş çobanın köməkçiləri, təkəoynadan (komik, ikinci soytarı), yalançı pəhləvanlar, baş və köməkçi rəqqasələr, tərəkəmə geyimli oğlan və qızlar, tərəkəmə yeniyetmələrinin çoban iti Bənək, qoyunlar, keçi və üç təkə (maskalı rəqqaslar), kütləvi səhnə işrirakçıları çıxış edirlər.

Musiqi çalınır. Bir dəstə qız meydançanın mərkəzində "Sayaçı" mərasim rəqsini ifa edir. Baş rəqqas oxuyur. Sonra çevik, ritmik rəqs çalınır. Bir dəstə tərəkəmə meydançaya çıxıb rəqs etməyə başlayır. Onlara Bənək qoşulur. Diringi havası çalınır. İki yalançı pəhləvan hay-küylə meydana daxil olub qurşaq tuturlar. Soytarı daxil olur. Uzaqdan tütək səsi eşidilir. Musiqi dəyişir. Baş çoban, köməkçilər, köpək, qoyun-quzu, çəpiş rəqs edirlər. Sonra təkəoynadan rəqs edir.

"Sim pəlvan" tamaşasında kəndirbaz tamaşasında istifadə olunan kəndir əvəzinə payalara möhkəm, bir-birindən 8-10 sm aralı qoşa sim (məftil) bağlanır. Oyunçu simlər üstündə daha çox akrobatik hərəkətlər göstərir, əl üstündə gəzir, daş qaldırır, dişlərində daş atıb tutur. Bəzən qızlar da sim üstündə oynayırlar. Kəndirbaz tamaşalarından fərqli olaraq burada rəqslər sakit tempdə ifa olunduğundan zurna, balaban və nağara daha ahəstə səslənir. Bəzən tamaşada iştirak edən aşıq saz çalır, təlxək isə oxuyur.

"Şatıroyunu" tamaşasında 6-7 yaşından 18 yaşa qədər qaçmaq üzrə təlim keçmiş oyunçu "şatırlı" (şən, şux deməkdir) ləqəbini almaq üçün böyük bir meydanda şənlik məclisi düzəldilir və meydanın mərkəzində qurulmuş taxt üstünə meyvə, şirniyyat qoyulur. Məclisin şən keçməsi üçün oraya xanəndələr və rəqqasələr dəvət olunur. Belinə zınqırovlu kəmər bağlayan oyunçu hakimin işarəsilə qaçmağa başlayır. O, bir ağac (təxminən 6 km) məsafəni gün çıxandan gün batana kimi dayanmadan 12 dəfə qət etməlidir. Hər 6 km məsafəni qaçanda orda dayanan adamdan ox götürüb geri qayıdır. Hər dəfə meydana daxil olanda onu musuqi ilə qarşılıyırlar; xanəndələr oxuyur, rəqqasələr oynayır. 12 ox toplamış oyunçu "şatır" ləqəbi alır və xüsusi paltar geymək hüququ qazanır.

Maraqlıdır ki, eyni adla başqa bir tamaşa da keçirilir. Bu vaxt bir oyunçu "çörəkçi" (şatır), başqası isə "təndir" rolunda çıxış edir. Çörək bişirən əvvəlcə "təndir" ətrafında rəqs edir və oxuyur, sonra çörək yapmağı yamsılayır. O, "təndiri" təsvir edən oyunçunun qarnına, sinəsinə və qoltuğuna guya çörək yapır və çıxarır. Bu da tamaşaçılarda gülüş doğurur.

"Kosa-kosa" tamaşasından sonra keçirilən "Şeydalı" tamaşanın əsas iştirakçısı olan Şeydalını (rolu qadın oynayır) kosanın yerini tutaraq arxası üstə səhnənin ortasına uzadılır, üzünə xara örtüb dizlərinin bükür və hər əlinə bir qaşıq verirlər. Onun sağında və solunda dayanan iki nəfərdən ibarət dəstə növbə ilə oxuyur. Şeydalı sazla ifa olunan musiqinin ritminə uyğun olaraq qaşıqları bir-birinə vurur. Mahnı sona yetəndə Şeydalını ayağa qaldırırlar. Yenə də hər iki dəstə növbə ilə oxuyur. Sazəndə dəstəsi çala-çala otağa daxil olur. Onlar yan-yana oturan qız və oğlanın yanında yer tuturlar. Dəstə oxumaqlarını davam etdirir. Sazəndə dəstəsi və oxuyanlar "A Şeydalı, Şeydalı, a Meydalı, Meydalı" deyərək otağı tərk edirlər.

"Şeyx şeypur" tamaşasında başına iri əmma qoyan, qarnı açıq, qurşaqsız gen tuman geyən təlxək meydana yığışan adamları lağa qoyur, heyvanların səsini, burnu ilə isə zurnanın çalınmasını yamsılayır.

Meydan tamaşalarının ən geniş yayılan növü "Zorxana" tamaşasıdır. Bu tamaşa ortasında kiçik gümbəzi olan tavanlı məscid, hamam və ya türbəni xatırladan binada - zorxanada (güc-qüvvət evi) keçirilir. Onun daxili mərkəz hissəsində 15-20 idmançının iştirakını təmin edən, uzunluğu 10 m və dərinliyi 1 m olan səkkizbucaq və ya kvadrat şəkilli oyun meydançası "süfrə" (qoud) yerləşir. Burada 200-300 tamaşaçı üçün yer də ayrılır. Binanın iç divarlarına rəsmlər çəkilir. Tamaşa alçaq zirzəmidə, kənd yerlərində isə 3 m dərinlikdə qazılmış yerdə də göstərilir. Zorxana təlimçisi - mürşüd üçün süfrənin yuxarı başında, səkidən 1 m hündürdə kiçik yer düzəldilir. Mürşüdün yanında təbilçi və ya dumbulçu oturur. O, gildən hazırlanmış və üzərinə nazik dəri çəkilmiş çalğı alətini səsləndirərək oyunun başlanmasını və qurtarmasını bildirir, oyun qaydalarını pozan iştirakçılara xəbərdarlıq edir. Onun yaxınlığında təbilin dərisini qızdırmaq üçün manqal qoyulur. Manqalın odu üzərində xoş ətir yaymaq üçün qurudulmuş ətirli otlar səpilir. Çox vaxt təbilçalan vəzifəsini mürşüdün özü yerinə yetirir. Süfrənin ortasında isə zorxanada ikinci sima sayılan ən təcrübəli oyunçu - miyandar (orta, aralıq deməkdir) dayanır.

Zorxana tamaşasında bir- birinin ardınca yeddi idman oyunu nümayiş etdirilir.

Təbill çalınan kimi mürşüdün xoş nəğməsi yüksəlir və "Sino" ("Quluncsındırma") məşğələ oyununa ilk olaraq miyandar başlayır. Sonra cavanlar əllərində 1 m-ə qədər uzunluğu, 5 sm eni, 3 sm qalınlığı və qurtaracaqlarında əl tutmaq üçün kvadrat şəklində əlyeri olan sino (sinə) taxtası saxlayaraq cərgə ilə, yerdən bir qarış yuxarı üzüqoylu uzanıb ayaqlarını süfrənin divarina dayayır və yerdən bir qarış yuxarı qalxırlar. Sonra bədənlərini növbə ilə sağa, sola və ən axırda aşağı endirib, yerə toxunmamış qaldırırlar. Bu hərəkətlər 120 dəfə təkrar olunmalıdır. Bəzən qüvvətli oyunçular arxalarına daş qoyur və ya balaca oğlan uşağı oturdurlar.

Bundan sonra idmançıların dincəlməsi və onların qüvvətini, dözümlüyünü nümayiş etdirmək üçün "Yepka" ("Ayaqdöymə") oyunu keçirilir. Oyunçular yerlərində qaçırmış kimi 8-10 dəfə ayaq döyürlər.

Növbəti oyun "Mil oynatma" adlanır. Bu oyuna da əvvəlcə miyandar başlayır. Oyunçuların hər əlində ağır ağac növündən (şümşat, səndəl, palıd) hazırlanan konusşəkilli, ucu yumru və içi qurğuşunla doldurulmuş 110 sm uzunluğunda, yoğunluğu 25 sm, çəkisi 10-16 kq və daha artıq (30 kq-a qədər) olan mili (gürzü, toppuzu) qaldıraraq zurnanın səsləndirdiyi "Cəngi" sədaları altında meydanda dövrə vuraraq milləri başları üzərində hərləyir. Bu vaxt təbil əvvəlcə ahəstə, sonra isə iti templə çalınır. Mahir oyunçular mili tək əllə yuxarı atıb, yenə dəstəyindən və ya qıçının altından atıb havada tutur.



Mil tamaşasından sonra "Kəbbadə" (istifadə olunan alət kamana oxşadığı üçün bu oyun "Kəmanə" də adlanır) oynuna keçirlər. Bu dəfə oyunçular tərəfindən 15-45 kq çəkisi olan və zəncirlə birləşdirilən girdə dəmir (kaman) idman alətindən istifadə olunur. Oyunçular alətin "kaman" adlanan hissəsini sol əlinə, "zeh" adlanan zəncirin ortasından sağ əllə yapışıb, başlarının üstünə qaldırırlar, sağa və sola aparıb başlarına keçirirlər. Bəzən kəbbadəni başları üstə hərəkət etdirməklə özləri də dövrə vururlar və tədriclə onu boyunlarından aşağı endirib, bellərinə qədər buraxdıqdan sonra əllərini buraxır və kəbbadəni bellərində hərlədirlər. Aləti ən azı 170 dəfə oynatmaq lazımdır. Bu alətlərlə göstərilən hərəkətlər, "Mil oyunu"nda olduğu kimi, əvvəlcə təbilin asta, sonra getdikcə sürətli vurulması ilə icra olunur.

Kəbbadənin ardınca "Yekbakir" ("Daşqaldırma") oyunu keçirilir. Oyunçular arxası üstə uzanıb ortasında tutmaq üçün dəstəsi olan qapı və ya darvaza şəklində olan taxtadan hazırlanmış 1,5 m uzunluğunda, 0,5 m enində və 3 sm qalınlığında yekbakirin (yekba, səng) hərəsini bir əlinə alıb növbə ilə sağ və sol qolla yuxarı qaldırır, eyni zamanda bədənlərini sağa və sola çevirirlər. Bu vaxt təbil (dumbul) yenə də əvvəlcə yavaş, sonra isə iti templə çalınır. Bu hərəkətləri 20 dəfə və artıq təkrar edən oyunçu qalib hesab olunur.

Bundan sonra oyunçular dincəlmək üçün "Çərxi" ("Təndövrə") oynuna keçirlər. Oynaq "Qaytağı", "Mirzəyi", "Koroğlu" rəqs melodiyasının sədaları altında oyunçular müxtəlif akrobatik hərəkətlər nümayiş etdirirlər.

Az fasilədən sonra zorxana tamaşasına uca kürsüdən nəzarət edən mürşüd əlindəki qumronu səsləndirməklə tamaşaçıları son yarışı izləməyə dəvət edir. Mürşüd "Gülikuşti" mahnısını ifa edəndə pəhləvanlar bir-birinin bədənini piyləyirlər. Zurna, nağara və qoşanağaranın müşayiətilə "Güləşmə" - qurşaq yapışma, küşt tutmaq, küştüyə girmək mərhələsi başlanır. Bu vaxt müxtəlif templi cəngilər ("Koroğlu qaytarması", "Misri", "Koroğlunun bağırı", "Pəhləvani") çalınır və güləşçilər müxtəlif fəndlər (qurdqapanı, yaxapaça, ayaqçaldı, paçabənd və s.) işlədərək bir-birinin arxasını yerə vurmağa çalışırlar.

Şəki zonasında güləşçilər dəmir yay və gürzlərlə əvvəlcə "Zopı-zopı" adlı yallı rəqsi ifa edirlər. Hər iki güləşçi rəqs edərək öz bacarıqlarını göstərir və bundan sonra güləşirlər.

Novruz bayramının ortalarında keçirilən "Mil oyunu" vaxtı oyunçular hərə iki əlinə mil alıb növbə ilə sağ və sol qollarını yuxarı qaldırır və aşağı endirir, başları üzərinə qaldırırlar. Sonra oyunçular təbilin və ya qoşanağaranın yavaş, iti və yenə də yavaş ahənginə uyğun mili hərləyirlər. Bəzən mili tək əllə yuxarı atıb dəstəsindən, mahir oyunçular isə onu qıçın altından atıb havada tuturlar. Bundan sonra qurşaq yapışırlar.

Yuxarıda adları çəkilən tamaşalardan əlavə bir və ya iki nəfər tərəfindən Novruz mərasimindən, cıdır, zorxana və digər əyləncə tamaşalarından sonra fərdi tamaşalar da göstərilir. Onlar çox vaxt fərdlərin şərtləşdiyi vaxtda keçirilir. Bu tamaşalar zamanı fitlə meydan qızışdırılır, döyüşə həvəsləndirən mahnılar oxunur, təbilin (qoşanağaranın) sədaları altında iti rəqslər ifa olunur.

"Nər döyüşdürmə" tamaşası zamanı oxunan mahnılar cəld nağara ritmləri ilə müşayiət olunur.

"Qoç döyüşdürmə" tamaşasında qoçların boynundan xırda zınqırovlar asılır. Bu da tamaşanı daha da rövnəqləndirir.

"Xoruzdöyüşdürmə" və "qoçdöyüşdürmə" zamanı zurnanın səsi eşidilir.

Carçının zurnada çaldığı melodiya ilə tamaşaçılar şəhərin geniş meydanına toplaşırlar və oyunbaz "Gözbağı oyunu"nu göstərir. Sonra dəfin rirtmik sədaları altında meydana boyunlarına dəmir xalqa keçirilmiş təlim almış canavarlar çıxarılır və "Qurd oyunu" nümayiş etdirilir. Oyun vaxtı musiqi çalınır, nəğmə oxunur və qurdlar öz hərəkətləri ilə meydanda toplaşan adamları (əsasən uşaqları) özlərinə cəlb edirlər.

"Şəmşirbaz" tamaşası göstərildiyi vaxt canbaz qılınc, xəncər, ikiağızlı bıçaq kimi iti silahlarla təhlükəli oyunları musiqiçilərin müşayiətilə nümayiş etdirir.

Xalq tamaşalarında, bayram və toy şənliklərində meydanlarda keçirilən oyunlar arasında qadın geyimində uzunsaç, dırnaqları xınalı, belinə gümüş belbağı, boynunda həmayıl, döşündə gümüş zəncir, dikdaban ayaqqabıda çıxış edən oğlan uşağı - mütrüb (başqa adı "köçək, "beçə") əlində zınqırovlu qaval və ya misdən hazırlanmış, baş və orta barmaqlarına geydirilən zilləri bir-birinə vuraraq rəqs edir, laloyunu göstərir.

"Ayı oyunu"nda əhliləşmiş ayı mayallaq aşır, qabaq pəncəsi üstünə qalxıb yeriyir. Arada ona oyunbaz (ayıçı, xırsbaz) tərəfindən verilən çomağı, əyri ağacı tutmaqla və yaxud arxasında odun şələləsini gəzdirməklə çobanı, cütçünü və odunçunu təqlid edir. Bu oyunda dədən istifadə olunur.

Ailə və dostların həyatında baş verən xoş hadisə şəninə qurulan "Cürəbəzm" kiçik şənlikdə iştirakçılar çalıb-oynayır, məzəli oyunlarla əylənirlər. Bəzən məclisə peşəkar oyunçu və çalğıçı da dəvət olunur.

"Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş" tamaşası əsasən Xıdır Nəbi, axır çərşənbə və Novruz bayramında göstərilir. Bu beş hissəli xalq dramında iki qardaş, bir mülkədar, iki öküz və sazəndələr ansamblı iştirak edir. Tamaşadan əvvəl sazəndə dəstəsi çalır, xanəndə oxuyur, adamlar oynayırlar.

"Fincan-fincan" oyununun iştirakçıları dövrə vurub oturur və qabaqlarına ağzıüstə çevrilmiş fincan qoyurlar. İştirakçılardan biri otağı tərk edir. Fincanlardan birinin altına şərikli alınmış qızıl üzük və ya başqa əşya qoyulur. Otağa daxil olan iştirakçı üzüyün harada olmasını müəyyən etmədikdə cərimə əvəzi misdən hazırlanmış dairəvi yastı qab olan məcməyidə çalınan ritmə uyğun rəqs edir və ya oynayır. Bu vaxt bütün iştirakçılar ona əl çalırlar.

Kənd və şəhərlərdə kiçik ailə şənlikləri və toy mərasimləri zamanı mağarda kuklaoyunu, çalğıçı, rəqqas, masqarabaz və hoqqabazlar tərəfindən "Gecəoyunu" göstərilir.

"Gözbağlıca" uşaq oyununda iştirakçılardan biri gözləri yaylıqla bağlı ətrafdakıları tutmağa çalışanda onlar müxtəlif əşyaları, o cümlədən zınqırovu səsləndirərək yerlərini bildirirlər.

Axşamçağı çayxanalarda və karvansara hücrələrində müxtəlif insan fiqurlarını pərdə arxasından işıqlandırıb düşən kölgələrinin hərəkəti vasitəsilə "Xəyaloyunu" oyuq (kukla) tamaşası gəstərilir. Əsas oyunçu

fiqurları oynadır, bir nəfər ona kömәklik göstərir, müğənni və iki çalğıçı isə oyunu müşayiət edir.

"Qarabirçək" oyunu boyin igid, işgüzar oğlan olduğunu bildirmək üçün keçirilir. Burada iki tərəf çıxış edir. İki qadın evin ortasına çıxaraq əl-ələ verirlər, o biriləri isə əllərini yuxarı qaldırırlar. Əlində qaval tutmuş iki qadın oxuya-oxuya əl-ələ tutan qızların əlləri altından keçərək biri sağa, o birisi isə sola dönür. Beləcə oyun davam edir. Qaval çalan və yaxşı səsi olan bir qız "Qarabirçək" mahnısını oxuyur, başqası əl çala-çala ona cavab verir.

Yüngül, məzhəki "Qaravəlli" xalq teatr tamaşası toy məclislərində şux ehtirasla söylənilən tamaşası göstərilir. Tamaşanın başlandıqlarından sonra göstərilir. Tamaşanın başlanmasını üzünə yumurta sarısını çəkmiş şəhəri və ya kəndi gəzən carçı xəbər verir. Tamaşaya daha çox adam yığmaq üçün musiqi çalınır və nəğmələr oxunur. "Qaravəlli" tamaşasını zurnaçı, nağaraçı, təbilçi və aşıq dəstəsi müşayiət edir. Tamaşa aşığın nikbin duvaqqapması və hamının icra etdiyi "Yallı" oyunu ilə bitir.

"Qaşıqoyunu" əldə tutulan qaşığı silkələməklə icra olunur. Çox vaxt ifaçı o biri əlində tutduğu mili alətə vurmaqla yeni səs tembrləri əldə edir.

Aşıq və zurnaçı dəstəsinin müşayiətilə çox vaxt üzlərinə maska taxan oyunçular sözsüz, səssiz, yalnız himcim, bədən hərəkətlərilə "Laloyunu" pantomima tamaşası göstərirlər.

Şərti adlandırdığımız "Lay-lay gülüm hay" oyununda otağa yığılan cavanlardan biri hövsəri çalaraq bu sözləri deyir:

Sarı qovunun dilimi
Yerdə qalanlar birlikdə oxuyurlar:
Lay-lay gülüm hay, ay gülüm hay!

Hər dəfə birinci misranın sözləri dəyişiləndə xor eyni sözləri oxuyur.

Göründüyü kimi hövsər, yəni buğdanı, düyünü və s. zibildən ayırmaq üçün istifadə olunan tabaq özüsəslənən çalğı aləti rolunu oynayır.

Başqa ev əşyası olan təşti çalmaqla və "a təşti, təşti..." sözlərini oxumaqla qız-gəlinlər halaysayağı "Təşti" oyununu icra edirlər.

Orta əsrlərdə keçirilən "Şamanoyunu" mərasim şənliyində şaman əlində qaval çalıb-oxuyur, rəqs edir və bəlağətli dildə bu və digər hadisələri söyləyirdi.

Axşam vaxtı kişi və qadınların toplandığı "Şəbnişini" məclisində dəvət olunan şairlər və çalğıçılar iştirak edir.

"Üç bacı-gəlin" oyununda üç bacı-gəlin və qaynana iştirak edir. Zalım qaynana gəlinləri çox incidir, onlara doyunca belə yemək vermir. Bir gün qaynananın evdə olmamasından istifadə edərək bacılar yuxa bişirirlər. Yuxa hazır olanda birdən qaynananın səsi eşidilir. Balaca bacı cəld tərpənərək yuxanı belinə bağlayır. Qaynana gəlini şaşqın görüb anlayır ki, onlar nə isə ediblər. Qaynana bacılara arzusunu bildirir: gəlinlər gərək bir-bir oynasın. Qavalı əlinə alıb, gəlinləri bir-bir oynadır. Kiçik bacı oxuyaraq: "Bağlamışam, qatması bərkdir bacı" - deyir. Qaynana heç nə anlamır və qaval çala-çala oyuna girir və hamısı birlikdə rəqs edirlər.

Şəkildə geniş yayılan "Üç badam bir qoz" məzəli oyunun iştirakçısı dümbəki çalaraq bədahətən meyxana deyir, himcim və bədən hərəkətlərilə tamaşaçıları güldürür.

Oyunların bir qismi də dərvişlər tərəfindən icra olunurdu. Bu "Dərviş oyunları" qədim şaman-qam mərasimlərindən törəmə sayılır. Onlardan ən məşhuru "Zikir" oyunudur. 8-12 ayaqyalın oyunçu mahnının, ney və halqa və zınqırovları olmayan bir üzünə dəri çəkilmiş və qavala nisbətən enli olan məzhərin müşayiəti ilə laloyunu sayağı, yəni himcim və bədən hərəkətləri ilə ifa olunan sözsüz və səssiz şəkildə rəqs edir. Bu zaman onlar bir ayaq üstə həm öz ətrafı və həm də meydanda çəkilmiş dairəvi xətt üzrə əvvəcə zəif, sonra isə iti sürətlə fırlanaraq "Dövran oyunu" nümayiş etdirirlər. Bununla da onlar tanrıya yaxınlaşırlar.

"Seyidnigari" dərviş oyunu zamanı kişi və qadınlar dəf və qavalın müşayiətilə oxuyur və rəqs edirlər. Dərvişlər rəqs zamanı simli alət olan tənburla da müşayiət olunur.

"Səma" dərviş oyununda nəfəs alətləri ney və şahnəfir (misdən hazırlanmış boru şəklində olan nəfirin buynuz kimi əyilmiş növü) istifadə olunur.

Dərvişlər tərəfindən "İlanların ovsun edilməsi" küçə tamaşası tütək çalğısı ilə müşayiət olunur. Ara bir uzunluğu 50 sm olan iki ağac çubuğa halqa, zınqırovlar keçirilmiş və iki metal çəmbər bərkidilmiş səfaili də silkələyərək cingiltili səs alınır.

Qeyd etmək lazımdır ki, dərvişlərin əsas alətlərindən olan qaval ifa zamanı iki əl arasında tez-tez hərlədilir, dəri üzünə zərbə vurulur və silkələnir.

"Bildirçinbazlıq" əyləncə oyununda erkək bildirçinlərin havada dövrə vurmasına tamaşa edən və onların gözəl oxumalarına qulaq asan həvəskarlar iştirak edir. Bu bildirçinləri çöldə düdük (giyid) çalmaqla aldadır və tora salırlar.

"Əlquşu ilə ov" əyləncəsində ov məqsədilə tərlan, şahin, qaraquş,qırğı kimi möhkəm əyri dimdiyli, uzun və iti caynaqlı yırtıcı quşlardan istifadə olunur. Azərbaycanda daha çox tərlana üstünlük verilir. Xüsusu təlim görmüş tərlanın ov üstünə daha cəld uçması üçün onun ayağına zınqırov bağlanır. Ovçu tərlanın dalınca at çapanda yəhər qaşının sağ tərəfində bağlanan təbilbası səsləndirərək tərlanı geri çağırır.

**S.ABDULLAYEVA,**
***sənətşünaslıq doktoru, professor***

**Qaynaqlar:**

Aslanov E. El-oba oyunu, xalq tamaşası.Bakı, İşıq, 1984, 275 s.

Aslanov E. Miniatür rəssamlığında Novruz // Qobustan, 2001, № 1, s. 3-6.

Dadaşzadə M. Azərbaycan xalq bayramları, oyun və əyləncələri. Bakı: Elm, 1995, 85 s.

Elçin M.E. Kəndirbaz oyunu // Qobustan, 2003, № 2, s. 16-21.

Həkimov M. Oğuz-türkəmə xalq mərasimləri və meydan tamaşaları. Bakı: Maarif, 1997, 233 s.

Nəbiyev A. El nəğmələri, xalq oyunları. Bakı: Azərnəşr, 1988, 168 s.

Novruz mərasimi və meydan tamaşaları. Toplayıb tərtib edəni M.Həkimov. Bakı: ADPU, 1991, 52 s.

Qarı nənə və övladları. Toplayanı və tərtib edəni B.Şahsoylu. Bakı: Gənclik, 1986, 79 s.

Sarabski H. Köhnə Bakı. Yazıçı, 1978, 138 s.

Şamil Əsgər. Dsağların hikməti. Bakı: İşıq, 1987, 100 s.

Tükənməz bulaq. Azərbaycan xalq rəqs mahnıları və tamaşaları. Toplayanı və tərtibçisi L.Ağayev. Bakı: İşıq, 1986, 70 s.